# İctimai asayiş etibarla qorunur



*Azərbaycan cinayətkarlığa qarşı mübarizədə əmin-amanlığın qorunması sahəsində dünyanın öncül dövlətlərindəndir. DİN və onun strukturları ölkədə ictimai-siyasi sabitliyin, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində, cinayətkarlığa qarşı mübarizədə məqsədyönlü iş aparır. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsis edilmiş polis orqanları mərdlik, sədaqət və rəşadətlərlə zəngin bir yol keçərək həm cümhuriyyət, həm də sovetlər birliyi dövründə öz şərəfli missiyasını layiqincə yerinə yetirmiş, cinayətkarlıqla mübarizənin ön sıralarında duraraq daxili asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamış, böyük təcrübə qazanmış, təşkilati cəhətdən möhkəmlənmişdir.*

*Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev 24 may 1998-ci il tarixli fərmanı ilə daha bir tarixi ədalətin zəfər yoluna işıq saçdı. İyulun 2-si Azərbaycan Polisi Günü elan edildi. Artıq on yeddinci ildir ki, ölkədə ictimai-siyasi sabitliyin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında xüsusi bir yeri olan şərəfli bir orqanın əməkdaşları özlərinin peşə bayramı gününü qeyd edirlər. Əməkdaşımız polis günü ərəfəsində Bakı şəhəri Nizami rayon Polis İdarəsinin rəisi, polis polkovniki Nofəl Məhərrəmovla görüşüb söhbət etmişdir. O, peşə bayramı münasibətilə ürək sözlərini ifadə edərək demişdir:*

—Cəmiyyətin cinayətkar qəsdlərindən qorunması, hüquqa zidd əməllərə qarşı kəskin mübarizə aparılması sahəsində Azərbaycan polisinin tarixi ənənələri vardır.

Müasir tariximizin ən mühüm və məsul dövrü olan 1993-2003-cü illər polis orqanları üçün də əlamətdar hadisələrlə zəngin olmuş, bu orqanın müasir dünya standartlarına cavab verən yeni məzmun və formada təşəkkül tapması ilə səciyyələnmişdir. Bu dövrdə Azərbaycan polisinin keçdiyi şərəfli yol onun sıralarında xidmət edən yüksək mənəvi-əxlaqi və peşə keyfiyyətinə malik, öz işinə ürəkdən bağlı olan, müstəqil dövlətə sədaqətli, fədakar xidmətləri ilə seçilən hər bir zabit, hər bir sıravi polis nəfəri üçün tükənməz qürur və iftixar mənbəyidir.

Ulu öndərimiz Heydər Əliyevin belə bir fikrini xatırlatmaq yerinə düşərdi: "Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir".

Cinayətkarlıqla mübarizədə və asayişin mühafizəsində ictimaiyyətin rolunun daha da artırılması, polis-vətəndaş əməkdaşlığının daha da möhkəmləndirilməsi mühüm şərtlərdəndir. Biz onun nəticələrini getdikcə daha yaxşı hiss edirik. İndi Azərbaycan vətəndaşı öz polisinə daha çox inanır və etibar edir.

Bəli, DİN və onun strukturları vətəndaşların təhlükəsizliyi, hüquq və azadlıqlarını müdafiə edən mühüm bir struktura çevrilmişdir. Bunu bu gün Nizami Rayon Polis İdarəsinin timsalında da aydın hiss etmək olar. İdarənin əməkdaşları vətəndaşların hüquq və azadlıqlarını qoruyan, ictimai-siyasi sabitliyin təminatçısı, cinayətkarlığa qarşı mübarizədə qəti sözünü deyən, dövlətə və dövlətçiliyə sədaqət nümayiş etdirən bir qurumdur.

İdarəmizin kollektivi həmişə olduğu kimi, öz peşə bayramlarını yenə də alnıaçıq, gülərüz və əldə olunan uğurlu nəticələrlə qarşılayırlar. Bu günlərdə Bakıda I Avropa Oyunları uğurla başa çatdı. İdman yarışları günlərində Nizami rayonunun polis işçiləri ictimai asayişin keşiyində ayıq-sayıq dayanırlar.

Xalqa, Vətənə, vəzifə borclarına sədaqətin nəticəsidir ki, son illərdə idarəmizdə qazanılan nailiyyətlər 10 ildəki nəticəni ötüb keçmişdir. Əlbəttə, bu, gərgin əməyin, operativ əməliyyatların nəticəsidir.

Nizami rayonu paytaxtımızda kriminogen durum üzrə ən ağır əməliyyat şəraiti olan rayonlardan biridir. Məhz buna görə də əməkdaşlarımız ölkəmizin uğurlu inkişafına nail olmaq üçün sabitliyin və asayişin yüksək səviyyədə qorunmasına maksimum səy göstərirlər.

Polisin uğurlarında, monolit qüvvəyə çevrilməsində, bacarıqlı kadrlarla möhkəmləndirilməsində, xüsusilə də bu sistemdə şəffaflığın təmin olunmasında Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun böyük xidmətləri vardır.

Qeyd etmək lazımdır ki, 2015-ci ilin ötən aylarında cinayətlərin açılmasında, axtarışda olanların, itkin düşənlərin tapılmasında uğurlu nəticələrə imza atmışlar.

Son vaxtlar Nizami Rayon Polis İdarəsində narkomaniyaya qarşı mübarizə sahəsində çox böyük işlər görülmüşdür. Keçirilmiş uğurlu əməliyyat nəticəsində ilin birinci yarısında narkomaniya ilə bağlı 75 fakt qeydə alınmış, açılma faizi 100 faiz təşkil etmiş, narkotik vasitə ilə məşğul olan cinayətkarlar yaxalanmış və 26 kiloqram 312 qram narkotik vasitə dövriyyədən çıxarılmışdır.

Ötən 6 ay ərzində ağır cinayət törədib istintaqdan yayınan və axtarışda olanların yerləri müəyyənləşdirilmiş və bu iş aidiyyəti orqanlara göndərilmişdir.

2015-ci ilin birinci yarısında 553 cinayət hadisəsi qeydə alınmış və açılma 80,1 faiz təşkil etmişdir. Bu da Bakı şəhəri üzrə yüksək göstəricidir. Həmçinin axtarışda alan cinayətkarların tutulması 69 faiz olmuşdur.

Cari ilin ötən 6 ayı ərzində Nizami Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən 8 cinayətkar qrup zərərsizləşdirilmiş, onlar tərəfindən törədilən 16 cinayət hadisəsinin üstü açılmış və 16 nəfər şəxs tutularaq istintaqa təhvil verilmişdir.

Cari ilin birinci yarısında keçən ilin müvafiq dövrü ilə müqayisədə quldurluq, şəxsi əmlak oğrusu, mənzillərdə oğurluq, soyğunçuluq və digər cinayətlərin aşkar olunmasında xeyli irəliləyişə nail olunmuş, bir sözlə, əməkdaşlarımız ictimai asayişin keşiyində ayıq-sayıq dayanmışlar. Yuxarıda qeyd olunmuş cinayət hadisələrinin üstünün açılması idarəmizin əməkdaşları ilə mühafizə idarəsi kollektivinin birgə əməyinin nəticəsidir. Belə ki, idarəmizin əməkdaşları mühafizəçilərlə birlikdə rayon ərazisindəki obyektlərin, mənzillərin qorunmasını diqqət mərkəzində saxlayıblar. Təbii ki, hər bir mənzil sahibinin mühafizə idarəsi ilə müqavilə bağlaması etibarlı mühafizəni təşkil edir.

Şəxsi heyət arasında intizam, qanunçuluğa riayət olunması sayəsində kompleks əməli tədbirlər davam etdirilmiş əməkdaşların həvalə edilmiş sahəyə cavabdehlik hissi daha da gücləndirilmişdir.

Polis idarəsinin əməkdaşları gənclərlə aparılan işə diqqət və qayğı ilə yanaşırlar. Gənc polis əməkdaşları ilə aparılan iş "Dövlət Gənclər siyasəti haqqında" fərmanın tələblərinə uyğun şəkildə qurulmuşdur.

Profilaktik işin ən effektli yollarından biri polisin əhali ilə sıx təmasda və cəmiyyətin içində olması, onun fəal təbəqəsi ilə birgə insanlara yardım göstərməsi, əhali arasında məqsədyönlü və sistemli şəkildə maarifləndirmə tədbirləri keçirməsidir. Odur ki, idarəmizdə ictimai təhlükəsizliyin təşkil edilməsində vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi sahəsində bütün lazımi işlər görülür.

Vurğulamaq lazımdır ki, rayon ərazisindəki ümumtəhsil məktəblərində şagirdlər arasında geniş iş aparılır, onlara tövsiyə olunur ki, heç vaxt pis vərdişlərə qurşanmasınlar, fəal həyat mövqeyi tutsunlar.

Bu gün Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyev Azərbaycan polisinin fəaliyyətini belə dəyərləndirir: "DİN Azərbaycanda çox mühüm işlər görübdür. Onların çox mühüm funksiyaları var. Azərbaycanda qanunun keşiyində duran qurumdur. Onlar öz vəzifə borclarını layiqincə yerinə yetirir, dövlətçiliyin keşiyində dururlar. Mən də Azərbaycan polisini dəstəkləyirəm".

Azərbaycan polisinin bütün şəxsi heyəti kimi, biz də öz peşə bayramımızı böyük qurur hissi ilə qeyd edirik. Bu peşəyə sədaqət, Vətənə, xalqa, dövlətə sədaqətin tərkib hissəsidir. Həmkarlarımızı bayram münasibətilə ürəkdən təbrik edir, ictimai asayişin və təhlükəsizliyin təmini kimi böyük və şərəfli missiyanın layiqincə yerinə yetirilməsində onların hər birinə uğurlar diləyirəm.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**